**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**“Azərbaycanın səhiyyə sektoru: mövcud vəziyyət və inkişaf perspektivləri”**

**No: 09/10/89**
**11.03.2009**

Azərbaycan – Türkiyə İş Adamları Birliyi (ATİB) Azərbaycanda fəaliyyət göstərən iş adamlarının iqtisadi və sosial sahədə informasiya ilə təminatını yaxşılaşdırılmaq, eləcə də ölkənin inkişaf prioritetlərinə uyğun fəaliyyətlərinə dəstək vermək məqsədi ilə 2008-ci ildən müvafiq tədqiqat proqramı həyata keçirməkdədir. Bu proqram çərçivəsində “Azərbaycanın səhiyyə sektoru: mövcud vəziyyət və inkişaf perspektivləri” mövzusunda hazırlanmış tədqiqatın 11 mart 2009-cu ildə ATİB ofisində ictimai müzakirəsi təşkil edilmişdir.

Layihənin əsas məqsədi səhiyyə sahəsində biznes mühitinin təhlili, tibbi xidmətlərin mövcud vəziyyətinin, maliyyələşmə mexanizminin və investisiya qoyuluşlarının qiymətləndirilməsi vasitəsilə səhiyyə sahəsinin inkişaf perspektivləri üzrə tövsiyələrin hazırlanmasından ibarətdir.

Layihənin icrası zamanı səhiyyə sahəsində biznes/rəqabət mühiti təhlil edilmiş, mövcud vəziyyət və müxtəlif əhali qruplarının tibbi xidmətlərə çıxış imkanları qiymətləndirilmiş, səhiyyə sahəsinin maliyyələşməsi və investisiya qoyuluşları araşdırılmış, inkişaf perspektivləri üzrə təklif və tövsiyələr hazırlanmışdır.

Sözügedən Hesabatın 1-ci fəsli tədqiqatın metodoloji yanaşmasını əks etdirir, araşdırmanın aparılmasında istifadə edilən metod və vasitələr haqqında məlumat verir. Hesabatın 2-ci fəslində Səhiyyə sahəsində biznes/rəqabət mühiti haqqında məlumat verilir, PEST metodu əsasında siyasi mühit, iqtisadi-sosial mühit, hüquqi-iqtisadi mühit, texnoloji inkişaf mühiti təhlil edilir. Hesabatın 3-cü fəslində səhiyyə sahəsində mövcud vəziyyət və müxtəlif əhali qruplarının bu xidmətlərə çıxış imkanları araşdırılmışdır. Burada səhiyyə xidmətləri sistemi və müxtəlif əhali qruplarının həmin xidmətlərə çıxış imkanları qiymətləndirilmiş, ölkə xaricində yerləşən tibb müəssisələrinə ölkə vətəndaşlarının müalicə üçün müraciət etməsi, həmçinin, səhiyyə xidmətləri sahəsində islahatlar təhlil edilmişdir. Hesabatın 4-cü fəslində səhiyyə sahəsinin maliyyələşməsi, bu sahədə islahatlar, investisiya qoyuluşları təhlil edilmiş və qiymətləndirilmişdir. Aparılmış təhlil əsasında səhiyyə sahəsinin ortamüddətli dövr üçün müəyyənləşdirilmiş inkişaf prespektivləri, tədqiqat üzrə ümumiləşdirilmiş nəticələr, imkanlar və təhlükələr, həmçinin səhiyyə sahəsinin inkişafı istiqamətində tövsiyələr Fəsil 5-də verilmişdir. Əlavələrdə isə tibbi və əczaçılıq fəaliyyətinə xüsusi razılıq (Lisenziya) verilməsi üçün hüquqi şəxslərdən tələb edilən sənədlərin siyahısı və özəl tibb müəssisələri üçün Müsahibə Anketi təqdim edilmişdir.

ATİB yaxın zamanlarda tədqiqat proqramı çərçivəsində “Azərbaycanda azad rəqabətin mövcud vəziyyəti və ölkə iqtisadiyyatına təsiri”, “Azərbaycanın maliyyə sektoru üzrə hesabat” və “Azərbaycanda təhsil sektorunun və biznesin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri” mövzularında həyata keçirdiyi araşdırmalar üzrə də ictimai müzakirələri təşkil etmək niyyətindədir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**